Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

ÜÇ CİLDDƏ

## II CİLD

Azərbaycan Milli
Kitabxanası

BAKI – 2017

**MƏHBUBƏ PAŞAYEVA**
*(20.5.1905, Şuşa – 16.1.1970, Bakı).*
*Opera müğənnisi.*

Məhbubə Məmməd qızı Paşayevanın səsi soprano idi. Əslən şuşalıdır. Üzeyir bəy Hacıbəylinin böyük bacısı Sayad xanımın qızıdır. Məhbubənin iki yaşı olanda atası vəfat edib və anası körpə qızı ilə Üzeyir bəyin yanında yaşayıb. Məhbubə xanım 15 yaşında olanda Üzeyir bəyin təşəbbüsü ilə Azərbaycan Dövlət Dram Teatrının nəzdindəki opera bölməsinə dəvət alıb (bölmə 1925-ci ildə müstəqil teatra çevrilib). 1948-ci ilə kimi Azərbaycan Dövlət Opera və Balet Teatrında solist kimi çalışıb. Bakı Musiqi Məktəbində və Azərbaycan Dövlət Konservatoriyasında təhsil alıb. Müğənni-aktrisa sonralar Azərbaycan Dövlət Xor Kapellasında və Azərbaycan Dövlət Filarmoniyasında işləyib. Teatrda bir müddət «Zeynalova» soyadı ilə çıxış edib.

*Opera teatrında ifa etdiyi əsas partiyalar və rollar:* Üzeyir bəy Hacıbəylinin əsərlərində Leyli («Leyli və Məcnun»), Əsli («Əsli və Kərəm»), Xanəndə qız («Koroğlu»), Gülçöhrə və Asya («Arşın mal alan»), Gülnaz («Məşədi İbad»), Şahsənəm («Aşıq Qərib», Zülfüqar bəy Hacıbəyli), Naznaz və Ənbər, Ərəbzəngi («Nərgiz» və «Şah İsmayıl», Müslüm Maqomayev).

***«Koroğlu», Üzeyir bəy Hacıbəyli.***
*Xanəndə qız – Məhbubə Paşayeva*

